# YURDUN TƏBİB OĞLU



*Lerik Rayon Mərkəzi Xəstəxanasının divarına vurulmuş bir lövhə uzaqdan diqqətimi cəlb etdi. Lövhədə Azərbaycan Respublikasının Əməkdar həkimi, səhiyyə əlaçısı, tanınmış cərrah-travmatoloq-ortoped, görkəmli tibb alimi Hacı Balağa Rəzzaq oğlu Bağırovun 1954-1964-cü illərdə Lerik rayon səhiyyə şöbəsinə rəhbərlik etdiyi qeyd olunub.*

Lerikin ilk ali təhsilli həkim-cərrahı, yerli kadr kimi rayon mərkəzi xəstəxanasının ilk baş həkimi vəzifəsində işləmiş, ömrünün 12 ilini çox çətin, ağır şəraitdə ucqar rayonun səhiyyəsinin inkişafına həsr etmiş, təkcə cənub bölgəsində deyil, respublikamızın tibb ictimaiyyəti arasında böyük hörmət və nüfuz qazanmış Balağa Bağırovun şərəfli ömür yolundan söhbət açmağımız təsadüfi deyil. Məşhur bir kəlamda deyildiyi kimi: unutmayaq, unudulmayaq.



1929-cu ilin qızmar yayında Lerikin uca dağlarına sığınmış səfalı Xəlifə kəndində dövrünün tanınmış sənətkarı Rəzzaq kişinin ailəsində dünyaya göz açıb. Ailələri Lənkərana köçdüyündən 1946-cı ildə Lənkəran şəhərindəki 2 saylı tam orta məktəbi əla qiymətlərlə bitirib. Həkim olmaq arzusu ilə sənədlərini Azərbaycan Dövlət Tibb İnstitutuna (indiki Azərbaycan Tibb Universitetinə) verib. Elə həmin il tələbə adının sevincini yaşayıb. Beşinci kursda cərrahiyyə ixtisasını seçib və dünyaşöhrətl akademuk Mustafabəy Topçubaşovun rəhbərlik etdiyi xüsusi cərrahiyyə kafedrasında subardinasiya keçib. Ali məktəbi fərqlənmə diplomu ilə bitirdiyindən universitetdə qalmaq, şəhərdə işləmək şansı olmasına baxmayaraq, təyinatını ən ucqar rayona - doğma Lerikə alıb. 1952-ci ilin avqust ayından Lerik rayon mərkəzi xəstəxanasında cərrahiyyə şöbəsinin müdiri vəzifəsində ilk əmək fəaliyyətinə başlayıb. Qısa vaxtda şöbənin işini canlandırıb. Cərrahiyyə üzrə tibb bacıları yetişdirib, təxirəsalınmaz, cərrahi əməliyyatları uğurla icra edib. Əhali arasında tibbi maarifləndirmə, kompleks profilaktik tədbirlər aparıb. O dövrdə ölümlə nəticələnən uşaq yoluxucu xəstəliklərin - qızılca, göyöskürək, difteriya, malyariya, qarın yatalağı, səpkili yatalaq, vərəm kimi təhlükəli xəstəliklərin müalicə-profilaktikası ilə ciddi məşğul olub. Əliabad və Kirəvud kəndlərində 4 evdə stasionar təşkil edərək uşaqları amansız ölümün pəncəsindən xilas edib.



Bacarıqlı həkim at belində dağ kəndlərini gəzərək əhali arasında sorğu və tibbi müayinələr aparıb, müalicəyə ehtiyacı olanlara tibbi yardım göstərib. Lerikin İranla sərhəd kəndlərində vəba və taun xəstəliklərinə qarşı profilaktik peyvəndlər aparıb. Gənc həkimin qabaqcıl təcrübəsi öyrənilərək respublika səviyyəsində geniş yayılıb. O, 1954-cü ilin mart ayında rayon səhiyyə şöbəsinə müdir təyin olunub. Bacarıqlı səhiyyə təşkilatçısının rəhbərliyi ilə rayon xəstəxanası 50 çarpayılıqdan 100 çarpayılığa çatdırılıb, xəstəxanada mama-ginekologiya, rentgen, fizoterapiya şöbələri, kəndlərdə xəstəxanalar, həkim və feldşer-mama məntəqələri açılıb. Səhiyyə Nazirliyinin qayğısı sayəsində rayon üçün ixtisaslı həkim və orta ixtisaslı tibbi kadrların hazırlanmasına nail olub.

Rayonda çalışdığı 12 il ərzində səhiyyə xidmətinin təşkilində və əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılmasında müstəsna əməyi olub. Bacarıqlı, peşəkar həkim Balağa Bağırovun yorulmaz, işgüzar fəaliyyəti Lerik səhiyyəsinin tarixində müstəsna yer tutur. O illərdə dəfələrlə Lerik rayon sovetinin deputatı və rayon partiya komitəsinin üzvü seçilib, şəkli Səhiyyə Nazirliyinin Şərəf lövhəsində asılıb. Keçmiş SSRİ Səhiyyə Nazirliyi tərəfindən "Səhiyyə əlaçısı" döş nişanı, Respublika Ali Soveti tərəfindən "Əməkdə fərqlənməyə görə" medalı ilə təltif olunub.

Lerikdə baş həkim işləyərkən uzunömürlülüyün sirləri ilə maraqlanıb. Planetimizin ən qocaman sakini, 150 il və daha çox ömür sürmüş Mahmud Eyvazov (Pirasora kəndi), Şirəli Müslümov (Barzavu kəndi) və başqalarının həyat yolu, yaşayış tərzi ilə yaxından maraqlanıb. 1959-cu ildə Azərbaycan EA-nın Fiziologiya İnstitutunun direktoru, respublikamızda geriatriya və gerontologiya elmininin əsasını qoymuş akademik Abdulla Qarayevi Lerikə dəvət edərək 80 yaşdan yuxarı 182 nəfərin sağlamlığını birgə tədqiq ediblər. Tədqiqat işinin nəticələri Azərbaycan Tibb Universitetinin Elmi Xəbərlərində dərc olunub.

Hər dəfə paytaxta gələndə tanınmış tibb alimləri ilə həmsöhbət olur, onların məsləhət və tövsiyələrini dinləyirdi. 1950-ci illərin əvvəllərində Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun (indiki Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutu) direktoru, dünyaşöhrətli alim, professor Əziz Əliyevlə tanış olur. Görkəmli alimin gənc həmkarına dəyərli məsləhətləri onun sonrakı taleyində çox mühüm rol oynayıb.



Tibb elminə sonsuz maraq istedadlı həkimi Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun aspiranturasına gətirib. O, aspiranturanı müvəffəqiyyətlə bitirərək tibb elmləri doktoru, professor Azad İsmayılovun rəhbərliyi ilə 1968-ci ildə "Fəqərə sütununun müxtəlif plastik materiallar vasitəsilə ön-yan fiksəsinin müqayisəli qiymətləndirilməsi" mövzusunda dissertasiya müdafiə edərək, tibb elmləri namizədi alimlik dərəcəsi alıb. İnstitutda kiçik elmi işçi, baş elmi işçi vəzifəsindən institutun baş həkimi vəzifəsinə kimi yüksəlib. 1969-cu ildən 1981-ci ilə kimi bu vəzifədə, 1991-ci ildən ömrünün sonuna kimi institutun baş həkiminin müalicə işləri üzrə müavini işləyib. Səhiyyə sahəsində uzun illər səmərəli fəaliyyətinə görə respublikanın əməkdar həkimi fəxri adına layiq görülüb.

Azərbaycanda, MDB məkanında və digər xarici ölkələrdə 100-dən artıq elmi-publisistik məqaləsi, 4 kitabı çap olunub. Nüfuzlu alim, təcrübəli həkim respublikamızda və keçmiş ittifaqın müxtəlif şəhərlərində keçirilən qurultaylarda, konfrans və simpoziumlarda Azərbaycan tibb elmini ləyaqətlə təmsil edib.

Travmatologiya və Ortopediya ETİ-nun əməkdaşı, tibb elmləri namizədi Əli Davudov həmkarını belə xatırlayır: "1973-cü ildən Hacı Balağa ilə birgə işləmək səadəti mənə nəsib olub. Fəxrlə deyə bilərəm ki, o, istedadlı alim, gözəl cərrah, təcrübəli travmatoloq-ortoped, müdrik insan, etibarlı dost, kamil din, tarix, ədəbiyyat bilicisi, yaxşı publisist və el ağsaqqalı olub. Bir neçə nəsil cərrah, travmatoloq-ortopedin, eləcə də mənim bir mütəxəssis kimi yetişməyimdə böyük əməyi olub. İlk dəfə mənə o, cərrah bıçağını etibar edib, ömrüm boyu özümü ona borclu sayıram.

Balağa Bağırov uzun illər institutumuzun baş həkiminin müalicə işləri üzrə müavini vəzifəsində çalışıb. Bu bacarıqlı, zəngin təcrübəyə malik həkim, fədakar insan sənətinə daim hörmət edib, onun nüfuzunu qoruyub. Yüzlərlə xəstəni şəfalı əllərilə sağaldıb. İnsanlara şəfa bəxş edən bu xeyirxah, nəcib insan 1994-cü ildə müqəddəs Həcc ziyarətində olub. Allah adamı kimi ehtiyacı olanlara əl tutub, xeyirxahlığı ilə nümunə göstərib. Sözün həqiqi mənasında, onun ömür yolu gənclər üçün böyük həyat və təcrübə məktəbidir".

Görkəmli tibb alimi, bacarıqlı səhiyyə təşkilatçısı, zəngin təcrübəli həkim Balağa Bağırov 13 il əvvəl dünyasını dəyişsə də, həmkarları, doğmaları, el-oba onu heç vaxt unutmur, xatirəsini böyük ehtiramla yad edirlər. 2019-cu ilin oktyabr ayında dünyaya göz açdığı Lerik rayonunda 90 illik yubileyi təntənəli şəkildə qeyd olunub. Lerik Rayon İcra Hakimiyyəti başçısının sərəncamına əsasən mərkəzi xəstəxananın divarında xatirə lövhəsi asılıb.

Hacı Balağa Bağırov həm də gözəl, nümunəvi ailə başçısı olub. Ömür-gün yoldaşı Münəvvər xanımla dörd qız və bir oğul böyüdüb ərsəyə çatdırıblar. Qızları İradə və Kəmalə ata yolunu davam etdirərək həkim, Sədaqət və Məlahət isə müəllim peşəsini seçiblər. Ailənin yeganə oğlu Əlimuxtar ixtisasca iqtisadçıdır, uzun illər respublikamızın maliyyə-vergi orqanlarında, Respublika Auditorlar Palatasında rəhbər vəzifələrdə çalışıb. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə iqtisadiyyat sahəsində səmərəli fəaliyyətinə görə "Tərəqqi" medalına layiq görülüb, respublikanın "Fəxri auditor"u adını daşıyır. Əlimuxtar müəllim deyir: "Atamın qəlbində böyük yurd, Vətən sevgisi yaşayırdı. Müstəqil Azərbaycanı, xalqımızı böyük məhəbbətlə sevirdi. İnsanlara qayğı göstərməyi, təmənnasız kömək etməyi üstün tuturdu. Bir nəslin, el-obanın ümid çırağı, ağsaqqalı idi. Qapısını həmişə inamla, ümidlə açırdılar. Bilirdilər ki, o, heç kimi naümid qaytarmaz. Evimiz həmişə qonaq-qaralı olurdu. Ziyalılar ətrafına yığışıb onunla məsləhətləşirdilər. Bizə tövsiyə edərdi ki, daxilən zəngin insanlarla dostluq, yoldaşlıq edin. Yəqin ki, bu gün ruhu da şaddır. Çünki övladları, nəvələri yolunu ləyaqətlə davam etdirir, arzularını yaşadırlar".

Yazını müdrik ağsaqqal Hacı Balağa Bağırovun "Hər kəs yüz il yaşamasa" kitabındakı bu sözlərlə tamamlamaq istəyirəm: "Neçə il yaşayırsan, yaşa. Bunu Tanrıdan başqa heç kim bilməz. Dərk etməlisən ki, bu gün varsan, sabah yoxsan. Odur ki, daim yaxşılıq toxumu səp. Sən olmayanda da, əməllərin cücərəcək və buna görə sənə rəhmət oxuyacaqlar. İnsan üçün ən böyük səadət sağlığında rəhmət qazanmaqdır!".

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**